Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin
Kollegiyasının “01” iyul 2013-cü il tarixli,
25 nömrəli qərarı ilə təsdiq edilmişdir

6 nömrəli əlavə

# Tibbi müayinə kartlarının onlayn sifarişi üzrə inzibati reqlamenti

## 1. Ümumi müddəalar

**1.1. Elektron xidmətin adı:** Tibbi müayinə kartlarının onlayn sifarişi

**1.2. Elektron xidmətin məzmunu:** Müxtəlif sahələrdə çalışan və işə qəbul edilərkən və ya sonradan dövri tibbi müayinədən keçməsi tələb olunan vətəndaşlar tərəfindən, onların tibbi müayinədən keçmələri barədə məlumatı özündə saxlayan tibbi müayinə kartlarının onlayn sifarişindən və bu sifariş əsasında tibbi müayinə kartlarının əldə edilməsindən ibarətdir.

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:**

1.3.1. “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikası Qanununun 25-ci maddəsi;

1.3.2. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli, 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə”nin 8.27-ci bəndi;

1.3.3. “Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-1-ci hissəsi;

1.3.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 12 iyun tarixli, 142 nömrəli qərarı ilə təsdiq edilmiş “Tibbi müayinə kartı” sisteminin tətbiqi Qaydalar”ının 4-cü və 6-cı hissələri;

1.3.5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli, 191 nömrəli qərarı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları" və “Elektron xidmət növlərinin Siyahısı”nın 14.36-ci bəndi.

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:** Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi (bundan sonra – “Nazirlik”)

**1.5. Elektron xidmətin digər icraçıları:** yoxdur.

**1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** Elektron xidmət qismən avtomatlaşdırılmışdır.

**1.7. Elektron xidmətin icra müddəti:** 10 gün.

**1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:** Müxtəlif sahələrdə çalışan və işə qəbul edilərkən və ya sonradan dövri tibbi müayinədən keçməsi tələb

olunan vətəndaşlar tərəfindən, onların tibbi müayinədən keçmələri barədə məlumatı özündə saxlayan tibbi müayinə kartlarının əldə edilməsi.

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

**2.1. Elektron xidmətin növü:** interaktiv.

**2.2. Elektron xidmət üzrə ödəniş:** ödənişli

**2.2.1. Ödənişin hüquqi əsası, məbləği, bank rekvizitləri, ödəmə üsulları:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 12 iyun tarixli, 142 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tibbi müayinə kartı" sisteminin tətbiqi Qaydaları"nın 6.2-ci bəndi;

"Tibbi müayinə kartının qiymətinin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2009-cu il 30 dekabr tarixli, 9 nömrəli Qərarına əsasən bir nəfər üçün tibbi müayinə kartının qiyməti 8 (səkkiz) AZN təşkil edir. Onlayn ödəniş zamanı bank tərəfindən komisyon haqq tutulur.

Bank rekvizitləri :

| | |
|---|---|
| Adı | DXA |
| Kodu | 210005 |
| VÖEN | 1401555071 |
| Müxbir Hesab | AZ85NABZ01360100000003003944 |
| S.W.I.F.T BIK | CTREAZ22 |
| Vəsaiti alan: | Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi |
| Hesab | N2128204 |
| VÖEN | 1401798401 |

Ödəmə üsulu: bank, poçt, plastik kart vasitəsi ilə.

**2.3. Elektron xidmətin istifadəçiləri:** Azərbaycan Respublikasının vətəndaşları

**2.4. Elektron xidmətin təqdim olunma yeri:** http://www.health.gov.az; http://www.e-gov.az

**2.5. Elektron xidmət barədə məlumatlandırma:**

İnternet ünvanı: http://www.health.gov.az; http://www.e-gov.az

Elektron poçt: office@e-health.gov.az

Telefon: 012-431-38-28

**2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:**

Elektron xidmətdən istifadə etmək üçün vətəndaş şəxsiyyət vəsiqəsinin nömrəsi və pin kodunu daxil etməlidir.

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

**3.5. Elektron xidmətlər üçün sorğu:**

**3.1.1 Sorğunun formalaşdırılması:** İstifadəçi, elektron xidmətin təqdim edildiyi internet səhifəsinə daxil olub şəxsiyyət vəsiqəsinin nömrəsini və pin kodunu, elektron poçt ünvanı, qeydiyyatda olduğu rayonu və aid olduğu obliqat qrupunu seçir və qeydiyyatdan keçir. Bundan sonra istifadəçi onlayn ödəniş etmək istərsə ödəmə kartının üzərində olan məlumatları (ad və soyad, kartın nömrəsi, kartın etibarlılıq müddətinin bitmə tarixi, CVC nömrəsi ) müvafiq pəncərədə doldurur.

İstifadəçi digər ödəmə üsulları ilə ödəniş etdiyi halda ödənişi təsdiq edən sənədin skan edilmiş surətini səhifəyə yükləyir.

**3.1.2. Sorğunun qəbulu:** Sorğu qəbul edilir və daxil edilən məlumatlar yoxlanılır.

**3.2. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**

**3.2.1. Sorğunun yerinə yetirilməsindən imtina halları:** İstifadəçi, bu reqlamentin 3.1.1-ci bəndində göstərilən məlumatları düzgün daxil etmədikdə və (və ya) hesabında yetərincə vəsait olmadıqda və ya ödənişi təsdiq edən sənəd düzgün olmadıqda sorğunun yerinə yetirilməsindən imtina edilir və sorğunun icrasından imtinanın səbəbləri barədə istifadəçiyə bildiriş göndərilir.

**3.2.2. Sorğunun qəbulu:** İstifadəçi, bu reqlamentin 3.1.1-ci bəndində göstərilən məlumatları düzgün daxil etdikdə və onlayn ödəniş etdikdə və ya ödənişin ödənildiyini təsdiq edən sənədi təqdim etdikdə sorğu qəbul edilir.

**3.3. Sorğunun icrası:**

**3.3.1. Ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat:** Sorğu qəbul edildikdən sonra Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"a uyğun olaraq dərhal qeydiyyata alınır və baxılması üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinə ünvanlanır.

Sorğunun icrası üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin rəhbəri bilavasitə məsuliyyət daşıyır.

**3.3.2. İnzibati əməliyyatda iştirak edən digər dövlət orqanı haqqında məlumat:** Yoxdur.

**3.3.3. İnzibati prosedurun nəticəsi və onun verilməsi qaydası:**

Çatışmazlıqlar və ya imtina üçün əsas olmadıqda istifadəçiyə tibbi müayinə kartının verilməsindən imtina edilməməsi barədə bildiriş göndərilir. Bundan sonra tibbi müayinə kartı rəsmiləşdirilərək birbaşa və ya poçt rabitəsi vasitəsilə istifadəçiyə təqdim olunur.

**3.4. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:**

**3.4.1. Nəzarət forması:** Kargüzarlıq, daxil olan müraciətlərin avtomatlaşdırılmış rejimdə mütəmadi monitorinqi.

**3.4.2. Nəzarət qaydası:** Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"la müəyyən edilmiş qaydada. Daxil olan müraciətlərin avtomatlaşdırılmış rejimdə təşkil olunmuş mütəmadi monitorinqi. Elektron xidmətin yerinə yetirilməsinə nəzarəti Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi həyata keçirir.

**3.5. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:**

**3.5.1. İstifadəçinin şikayət etmək hüququ haqqında məlumat:** İstifadəçi elektron xidmətlə bağlı onu razı salmayan istənilən məsələ barədə yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) inzibati qaydada və məhkəməyə şikayət edə bilər.

**3.5.2. Şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya:** Şikayət kağız üzərində və elektron qaydada tərtib oluna bilər. Kağız üzərində şikayət Nazirliyin poçt ünvanına, elektron şikayət isə bu reqlamentin 2.5-ci bəndində göstərilən elektron poçt ünvanına göndərilməlidir. Şikayətdə fiziki şəxsin adı, atasının adı, soyadı, ünvanı, poçt və ya elektron poçt ünvanı, işlədiyi yer göstərilməlidir.

**3.5.3. Şikayətin baxılma müddəti:** Şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 78.1-ci maddəsinə əsasən 1 ay müddətində baxılır.